# Ramiz QUSARÇAYLI - 65



Hörmətli Ramiz Qusarçaylı!

Sizi - tanınmış şairi 65 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 25 dekabr 1958-ci ildə Quba rayonunun Çartəpə kəndində anadan olmusunuz.

Yaradıcılığa erkən, uşaqlıq illərindən başlamış, öz şeirlərinizlə respublikamızın ünlü sənətkarlarının diqqətini cəlb etmisiniz. Hələ 17 yaşında ikən xalq şairi Osman Sarıvəlli sizə "Qusarçaylı" təxəllüsünü vermiş, mətbuat səhifələrində yaradıcılığı barədə məqalə ilə çıxış edərək, uğurlu yol diləmişdir.

Siz 1993-cü ildə, ulu öndərimiz Heydər Əliyevin ikinci dəfə ölkə rəhbərliyinə qayıdışı ilində Qubada bölgə yazarlarını özündə birləşdirən "Ay işığı" adlı ədəbi məclis yaratmısınız. 1994-cü ildə "Ay işığı" ədəbi məclisinin bazası əsasında Azərbaycan Yazıçılar Birliyinin Quba bölməsi yaradılmışdır. O, 1996-cı ildən Azərbaycan Yazıçılar Birliyinin, 2019-cu ildən isə, İraq Türkmənləri Yazarlar Birliyinin üzvü, Azərbaycan Yazıçılar Birliyi Quba bölməsinin sədrisiniz.

"Çörəyim daşdan çıxır", "Ömür qapıları", "Bir çiçək axşamı", "Nə gözəldi yolun, Allah", "Almalı kitab", "Gedəsən dünyanın axırınacan", "Sevgidi dünyaya qəsdim", "Vətən" adlı şeirlər, "Göyəm ağacı" adlı tərcümə kitablarının, "Quba" adlı foto-albomun, "Ay işığı" adlı beş almanaxın, onlarla elmi, bədii və publisistik məqalənin müəllifisiniz. Şeirləriniz ingilis, rus, Ukrayna, fars, qırğız, qazax, özbək, yakut və Dağıstan xalqlarının dillərinə tərcümə olunub dərc edilmişdir.

2005-ci ildə qələmə aldığınız "Azərbaycan bayrağı" adlı şeiri Azərbaycan Respublikası Təhsil nazirinin əmrinə əsasən, ali məktəblərin bütün ixtisasları üçün təsdiqlənib, nəşr olunmuş "Azərbaycan dili və nitq mədəniyyəti" adlı dərslik kitabında, Dövlət İmtahan Mərkəzinin 9-cu siniflər üçün Azərbaycan dilinin Test kitabında, 8-ci siniflər üçün "Azərbaycan dili" dərslik kitabında, "Şuşalı vətən" və "Gözün aydın, Qarabağ" adlı və digər şeirləri isə 7-ci və 8-ci siniflər üçün "Ədəbiyyat" dərslik kitablarında dərc edilərək tələbə və şagirdlərə tədris edilir, ölkənin bayram, mərasim və tarixi günlərində əksər elm və təhsil müəssisələrində, o cümlədən, Azərbaycanın bütün telekanallarında mahnı və kompozisiyalar şəklində, müntəzəm olaraq səsləndirilmiş və bu gün də səsləndirilməkdədir.

Şanlı ordumuzun möhtəşəm Qarabağ qələbəsinə həsr edilmiş "Zəfər paradı"nın Azərbaycan Televiziyasında canlı yayımı da məhz sizin "Azərbaycan bayrağı" şeiri ilə açılmışdır.

Ali Baş Komandanın rəhbərliyi ilə aparılan çoxtərəfli, çoxmiqyaslı və çoxmənalı Vətən müharibəsi ədəbiyyatımızın əbədi Vətən mövzusunun yaradıcılıq meydanını müqayisə edilməyəcək qədər genişləndirdi ki, bunun dəyərli faktlarından biri, heç şübhəsiz, Ramiz Qusarçaylının 2021-ci ildə nəşr edilmiş "Vətən" poemasıdır.

Ramiz Qusarçaylı "Vətən" poemanıza görə Azərbaycan Yazıçılar Birliyinin İstiqlal şairimiz Əhməd Cavadın adına təsis etdiyi "Əhməd Cavad mükafatı"na, Türkiyə Kültür və Turizm Bakanlığının və Türkiyə Yazarlar Birliyinin "Ziya Paşa Büyük Ödül"ünə, Beynəlxalq Türk Müəllifləri Birliyinin, Azərbaycan Mədəniyyət Nazirliyinin, Milli Məclisin Mədəniyyət Komitəsinin, Azərbaycan Yazıçılar Birliyinin, TÜRKSOY, İLESAM və digər qurumların dəstəyi ilə keçirilən II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalında Türk dünyası mədəniyyəti və ədəbiyyatı qarşısında xidmətlərinə görə "Nizami" medalına, "Aşıq Ələsgər İctimai Birliyi"nin "Aşıq Ələsgər - 200" yubiley medalına, Mərkəzi Asiya Yazıçılar və Tarixçilər İttifaqının və "Əmir Teymur" Beynəlxalq Xeyriyyə Fondunun "Turan Birliyi" medalına, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun, o cümlədən, digər ali və orta ixtisas təhsil ocaqlarının, cəmiyyət, təşkilat və qurumların Fəxri Fərmanlarına layiq görülmüsünüz.

Siz Azərbaycan Yazıçılar Birliyi Quba bölməsinin sədri və eyni zamanda "Ay işığı" ədəbi məclisinin rəhbəri kimi, Dərbəndin ədəbi qüvvələri ilə sıx əlaqələr yaratmısınız.

Hörmətli Ramiz Qusarçaylı, sizi anadan olmanızın 65 illiyi münasibətilə təbrik edir, sizə yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti. - 2023. - 23 dekabr, № 50. - S. 23.**